**UOT 343.2/.7**

# HAKİMİYYƏT NÜMAYƏNDƏSİNƏ QARŞI MÜQAVİMƏT GÖSTƏRMƏ VƏ YA ZOR TƏTBİQ ETMƏNİN OBYEKTİV CƏHƏTİ HAQQINDA

**Y.D.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***Yegane_N@mail.ru***

*Məqalədə hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti tədqiq edilir. Göstərilir ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmədə, zor tətbiq etməklə müqavimət göstərmədə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmək hədəsilə hədələmədə ifadə olunur. Məqalədə tədqiq edilən məsələ barədə ümumiləşmə aparılır və müvafiq nəticələr çıxarılır.*

**Açar sözlər:** cinayət, cinayət məsuliyyəti, cinayətin obyektiv cəhəti, hakimiyyət nümayəndəsi, müqavimət göstərmə, zor tətbiq etmə

Cinayətin obyektiv cəhəti cinayət tərkibinin zəruri elementlərindən biridir. F.Y.Səməndərov göstərir ki, cinayətin obyektiv cəhəti müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai təhlükəli qəsdin zahiri cəhətidir (3, 148). Cinayətin obyektiv cəhətinin məcburi və fakultativ əlamətləri vardır. İctimai təhlükəli hərəkət və ya hərəkətsizlik cinayət qanununda nəzərdə tutulan bütün tərkiblərə daxil edildiyindən, belə əlamətlər cinayətin obyektiv cəhətinin zəruri əlamətləri sayılır.

Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhətini nəzərdən keçirək. Qeyd edək ki, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə mürəkkəb tərkibli, yəni ikiobyektli zorakılıq cinayətidir. L.D.Qauxman yazır ki, ikiobyektli zorakılıq cinayətinin məcburi əlaməti zərərçəkənə fiziki zorakılığın tətbiq edilməsi və ya belə zorakılığın tətbiq edilməsi hədəsidir, yəni psixi zorakılıqdır (5, 19).

M.D.Səlimov və Ə.H.Hüseynov hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti ilə bağlı yazırlar ki, obyektiv cəhətdən bu cinayət xidməti vəzifələrinin yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə zor tətbiq etmədə, zor tətbiq etməklə müqa-

vimət göstərmədə və ya onun yaxın qohumlarına qarşı həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmək hədəsilə hədələmədə ifadə olunur (2, 871).

Cinayət qanununda "zorakılıq" dedikdə bir qayda olaraq yalnız fiziki zorakılıq başa düşülür. Zorakılıq tətbiq etmə hədəsinə görə cinayət məsuliyyəti nəzərdə tutulduğu hallarda, bu, cinayət-hüquqi normaların dispozisiyasında qeyd edilir. Qanunverici "fiziki zorakılıq" terminindən də istifadə edir ki, o da "zorakılıq" termini ilə eyni məzmun daşıyır. Qeyd edək ki, cinayət qanununda zorakılığın leqal anlayışı müəyyən edilməmişdir.

Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etməyə görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 315-ci maddəsinin tərkibinə zorakılıq konstruktiv əlamət kimi birbaşa daxil edilmişdir: Cinayət Məcəlləsinin 315.1-ci maddəsində "zor tətbiq etmə, ... həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə və ya belə zor tətbiq etmə hədəsi...", 315.2-ci maddəsində "həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə".

M.D.Səlimov və Ə.H.Hüseynov qeyd edirlər ki, zor tətbiq etmə dedikdə, hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı təsir göstərmə başa düşülür. Belə təsir həm fiziki, həm də psixi zorakılıq formasında təzahür edə bilər (2, 872).

Beləliklə, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti aşağıdakı hərəkətlərdə ifadə olunur:

1) həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə; 2) psixi zorakılıq tətbiq etmə; 3) həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə.

Bütövlükdə zorakılıq cinayətləri cinayət hüququnda xeyli yer tutur. Onları həmin cinayət tərkiblərindən hər birinin elementlərindən birinin zorakılıq olması birləşdirir. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə bir hərəkətlə törədilən ikiobyektli zorakılıq cinayətidir. Belə ki, zorakılıq və ya zorakılıq hədəsi qanunda alternativ nəzərdə tutulmuşdur, yəni təqsirkar iki hərəkətdən birini törədir: ya zorakılıq tətbiq edir, ya da zorakılıq tətbiq etməklə hədələyir. Deməli, onlara bir zorakı hərəkət kimi baxmaq olar. Cinayətin obyektiv cəhətini hakimiyyət nümayəndəsinin və ya onun yaxın qohumlarının sağlamlığını təmin edən münasibətlərə edilən qəsd hərəkəti səciyyələndirir. Baxılan cinayətin ikinci obyektə – dövlət orqanlarının normal fəaliyyətinə yönəlməsi cinayətin subyektiv cəhətinin elementləri olan məqsəd və motivdə, zərərçəkənin xüsusiyyətlərində ifadə edilir. İ.Poqrebnyak yazır ki, "... cinayət məcəllələrində bir çox cinayətlər formulə edilmişdir ki, onlar, iki obyektə qəsd etsələr də, bilavasitə yalnız bir obyektə zərər vurmağa yönəlmişdir, ikinci obyektin pozulması isə hüquq pozuntularının ayrı-ayrı əlamətləri ilə şərtlənir" (10, 24). Beləliklə, Cinayət Məcəlləsinin 315.1-ci maddəsinin dispozisiyasında göstərilən məqsəd və motivlə zorakılığın və ya zorakılıq hədəsinin tətbiq edildiyi andan nəzərdən keçirdiyi-

miz cinayət başa çatmış sayılır.

Cinayət hüququnda zorakılıq anlayışı öz-özlüyündə mürəkkəbdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 315-ci maddəsinin obyektiv cəhətinin elementini təşkil edən zorakılıq sadə və tövsifedici əlamət kimi çıxış edir, həmçinin əsas bilavasitə obyektə – hakimiyyət nümayəndələrinin normal fəaliyyətinə yönəlmiş cinayətkar qəsdin törədilmə üsuludur. Bu zaman vacibdir ki, "...istənilən növ zorakılıq öz qanuni vəzifəsini yerinə yetirən hakimiyyət nümayəndəsinə edilən təsirin üsulu olsun" (11, 25).

Cinayət hüquq nəzəriyyəsində xarakterinə görə zorakılığın iki növü fərqləndirilir: fiziki zorakılıq; psixi zorakılıq, yəni fiziki zorakılığı tətbiq etmə hədəsi. Zorakılığın hər bir növü zorakılıq intensivliyinə görə iki yerə bölünür. Fiziki zorakılıq həyat və sağlamlıq üçün təhlükəli olan zorakılığa; həyat və sağlamlıq üçün təhlükəli olmyan zorakılığa, həmçinin psixi zorakılıq öldürmə ilə hədələmə və sağlamlığa zərər vurma ilə hədələməyə bölünür.

L.D.Qauxianın fikrincə, zorakılıq anlayışı bir neçə şəkildə mənalandırılır: birinci, fiziki zorakılığı geniş mənada müəyyən etmək; ikinci, insanın həyat və ya sağlamlığı üçün təhlükəli olan fiziki zorakılıq, insanın həyat və ya sağlamlığı üçün təhlükəli olmayan fiziki zorakılıq; üçüncü, psixi zorakılığı geniş mənada müəyyən etmək və intensivliyinə görə onun dərəcələrini fərqləndirmək üçün meyarları müəyyən etmək (5, 4).

Tədqiq etdiyimiz ikiobyektli cinayətdə fiziki və psixi zorakılığın əhəmiyyəti ondan ibarətdir ki, zorakılıq hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına edilən qəsdlə dövlət orqanlarının normal fəaliyyətini təmin edən idarəetmə qaydası əleyhinə edilən qəsd arasında səbəbli əlaqəni ifadə edir, həmçinin hakimiyyət orqanlarının fəaliyyətinə edilən qəsd vasitəsidir. İkinci, zorakılıq şəxsiyyətin sağlamlığını təmin edən ictimai münasibətlərə qəsdi səciyyələndirir.

Qeyd edək ki, «zorakılıq» sözü «Azərbaycan dilinin izahlı lüğəti»ndə «zor tətbiqi, zor işlətmə; zor vasitəsilə məcburiyyət» kimi mənalandırılır (1, 688).

Zorakılığın faktiki və hüquqi əlamətləri fərqləndirilir. Zorakılığın faktiki əlamətlərinə, birinci, hərəkətin xarici tərəfini və üsulunu səciyyələndirən obyektiv əlamətlər, ikinci, zorakılığı tətbiq edən şəxsin bu hərəkətə iradi münasibətini ifadə edən subyektiv əlamətlər daxildir. Hərəkətlərin qeyri-qanuniliyi barədə göstəriş zorakılığın hüquqi əlamətini səciyyələndirir. Bu əlamət hərəkətin ictimai təhlükəliliyində və hüquqa ziddliyində ifadə edilir (5, 4).

Cinayət hüququ nöqteyi-nəzərindən fiziki zorakılıq faktiki və hüquqi əlamətlərin məcmuyu ilə səciyyələnir. Qeyd edək ki, buruda faktiki və hüquqi əlamətlər bölgüsü şərtidir.

Fiziki zorakılığa L.D.Qauxman daha müfəssəl anlayış vermişdir: "Fiziki zorakılıq dedikdə başqa adamın orqanizminə onun iradəsinin əleyhinə ictimai təhlükəli, hüquqazidd təsir başa düşmək lazımdır" (4, 4).

M.D.Səlimov və Ə.H.Hüseynov yazırlar ki, fiziki zorakılıq dedikdə, ha-

kimiyyət nümayəndəsinin bilavasitə özünə və ya onun yaxın qohumlarına ünvanlanmış onların iradəsinə zidd elə qanunsuz fiziki təsir başa düşülür ki, bu vasitələr hakimiyyət nümayəndələrinə qarşı müqavimət göstərmək, onu xidməti vəzifələrini icra etməkdən çəkindirmək, yaxud bu vəzifələri təqsirkar üçün əlverişli olan qanunsuz qayda və metodlarla icra etməyə məcbur etmək və s. məqsədinə xidmət etmiş olsun (2, 872).

İ.Y.Kozaçenko və Z.A.Neznamova zorakılığa anlayış verərkən “onun iradəsi ziddinə” və “iradəsini nəzərə almadan” əlamətlərinin ikisini də işlədir: “Fiziki zorakılıq başqa adamın iradəsini nəzərə almadan və ya iradəsinin ziddinə onun bədəninə hüquqazidd hərəkətdir” (14, 676).

Fiziki zorakılıq həmişə fəal hərəkətdən ibarətdir. Cinayət-hüquqi mənada hərəkət insanın ictimai təhlükəli və hüquqazidd olan bədən hərəkətlərinin kompleksindən ibarətdir. Q.V.Timeykonun fikrincə, cinayətkar hərəkət insanın xarici aləmə radikal ictimai təhlükəli təsiri kimi səciyyələnir (12, 23).

Cinayətkar hərəkət zahirən mexaniki hərəktlərdə təzahür edir, bu hərəkətlər vasitəsilə insan ona məxsus bədəndən, təbii qüvvədən istifadə edir və bu yolla obyektə təsir göstərərək zərərli nəticə doğurur. Cinayətkar hərəkət – öz xarakterinə görə ictimai təhlükəli, hüquqazidd, iradi, mürəkkəb və fəal davranış olub qanunla qorunan maraqlara əhəmiyyətli zərər yetirir və ya zərər yetirə bilər (12, 40).

Cinayət-hüquqi mənada fiziki zorakılıq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq normalarının, o cümlədən CM-in 315-ci maddəsinin dispozisiyalarında öz əksini tapmışdır.

Zorakılıq başqa adamın iradəsi əleyhinə yönəlmiş hərəkətdir. Təqsirkar fiziki zorakılıq tətbiq edərək zərərçəkmişin iradəsi ilə hesablaşmadan hərəkət etməyi arzulayır. Bundan başqa, o, müxtəlif motiv və ya məqsədləri rəhbər tuta bilər. Belə ki, hakimiyyət nümayəndəsinə zorakılıq tətbiq edərkən təqsirkar göstərilən şəxslərin qanuni fəaliyyətini dəyişdirmək, yaxud hakimiyyət nümayəndəsinin yaxın qohumlarından intiqam almaq məqsədi güdür.

Fiziki zorakılığın zahiri təzahürü xarakterinə görə iki müxtəlif növdə ifadə edilə bilər: 1) insanın bədəninə təsir etmək; 2) insanın xarici toxumalarını zədələmədən onun daxili orqanlarına təsir etmək (zəhərləmə) (4, 4).

Birinci növ həm sovet dövrünün, həm də müasir dövrün kriminalist alimləri tərəfindən fiziki zorakılığın anlayışına daxil edilmişdir. İnsanın cismani toxunulmazlığına qəsd edən birinci növ fiziki zorakılıq hərəkətlərinin intensivlik dərəcəsi yüksəldikdə zərərçəkmiş şəxsin sağlamlığına müxtəlif dərəcəli zərər yetirilə və ya o həyatdan məhrum edilə bilər.

Birinci növ fiziki zorakılıq davam etməsinə görə qısamüddətli və ya uzunmüddətli ola bilər. Qeyd edək ki, baxdığımız cinayət formal tərkibli olduğundan zorakılığın müddəti əhəmiyyət kəsb etmir. Formal tərkiblərə cinayətin obyektiv cəhətinin elementlərindən ancaq hərəkəti, yaxud da hərəkətsizliyi xarakterizə edən əlamətlər daxil edilir (3, 129). Beləliklə, hakimiyyət nümayəndəsinə və ya onun yaxın qohumlarına qarşı zorakılıq (onun hər iki növü) tətbiq

edildiyi andan cinayət başa çatmış sayılır. Törədilmiş əməlin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 315-ci maddəsi ilə tövsif edilməsi üçün hakimiyyət nümayəndəsinin normal fəaliyyətinin faktik –pozulub-pozulmamasının əhəmiyyəti yoxdur.

Bəzi cinayət tərkiblərinin formal tərkibli müəyyən edilməsi şəxsi və dövlət maraqlarının mühafizəsini maksimum təmin etməyə imkan verir (12, 105). Belə ki, cinayətin başa çatma anını onun törədilməsinin daha erkən mərhələsinə keçirməklə qanunverici bu və ya digər rifahları zərərli nəticələrdən qorumağa çalışır.

Formal cinayət tərkiblərində nəticələrin baş verməsi və ya baş verməməsi faktı törədilmiş cinayətin böyük və ya kiçik ictimai təhlükəliliyə malik olmasının göstəricisidir və cəza təyini zamanı nəzərə alına bilər (12, 107).

Cinayətkar zorakılıq tətbiq edərkən özünün fiziki qüvvəsindən istifadə edə bilər, bu zaman cismani zədələr subyektin orqanları vasitəsilə bilavasitə vurula bilər. Məsələn, əl və ayaqlarla zərbələr endirmə, bədənin müəyyən orqanlarını və ya hissəsini əllə sıxma, dişləmə və s. Cinayətkar odlu və soyuq silahdan, silahı əvəz edən əşyalardan, mayelərdən (sulfat turşusu, qaynar maye), dənəvər maddələrdən (qumu, tütünü gözə tullamaqla) və ya heyvanlardan (iti qasqırtmaqla) istifadə edə bilər. Göstərilən üsullarla, xüsusən mexaniki təsirlərlə bədənə xəsarət yetirilməsi zamanı əksər hallarda insan bədəninin toxumalarının anatomik bütövlüyü pozulur (6, 27).

Fiziki zorakılığa insan azadlığının məhdudlaşdırılması da aid edilir. Bir çox alimlər bu mövqeyə tərəfdar çıxırlar. Belə ki, N.İ.Trofimov fiziki zorakılığın konkret növlərinə zərbələr endirməyi, döyməni, cismani xəsarət yetirməni, həmçinin azadlıqdan məhrum etməni və ya azadlığın məhdudlaşdırılmasını aid edir (13, 20-21). Baxılan halda azadlığın məhdudlaşdırılmasının bütün halları deyil, yalnız zərərçəkmiş şəxsin bədəninə bilavasitə təsirlə bağlı olan azadlığın məhdudlaşdırılması (əl-ayağın sarınması, ağzın bağlanması, itələnmə və s.) zorakılıq hesab edilir.

Beləliklə, insanın bədəninə təsirdə ifadə edilən fiziki zorakılıq insanın cismani toxunulmazlığına təsir edən, şəxsiyyətin bu rifahına zərər yetirilməsinə birbaşa yönəlmiş, fiziki ağrı, cismani zədə yetirib-yetirməməsindən asılı olmayaraq istənilən fiziki təsirlə səciyyələnir. Belə ki, cinayət məsuliyyətinin əsası olaraq tdarəetmə orqanlarının normal fəaliyyəti əleyhinə yönəlmiş hərəkət çıxış edir, sağlamlığa zərər vurulması baxılan cinayət tərkibi üçün məcburi əlamət deyildir (7, 9).

Paltarın zədələnməsi və ya məhv edilməsi ilə bağlı hərəkətlərin zorakılıqla əhatə edilməsi məsələsini nəzərdən keçirək. Qeyd edək ki, göstərilən məsələdə kriminalist alimlər arasında fikir birliyi yoxdur. Bir qrup müəlliflər belə mövqeyi ifadə edirlər ki, paltarın məhv edilməsi və ya zədələnməsi (...furajkanı vurub yerə atmaq, paqonları, düymələri qoparmaq, kiteli cırmaq və s.") ilə bağlı hərəkətlərin zorakılıq kimi başa düşülməlidir (14, 676). Hesab edirik ki, bu mövqe düzgündür və Azərbaycan Respublikasının Cinayət Mə-

cəlləsinin 315-ci maddəsi ilə tövsif edilməlidir. Z.A.Neznamova yazır ki, formalı paltarın məhv edilməsi və ya zədələnməsi yalnız hakimiyyət nümayəndəsinə zor tətbiq edilməsi prosesində baş verdikdə cinayət tərkibini yaradır" (9, 1102).

Digər qrup müəlliflərin mövqeyinə görə isə "...zorakılıq dedikdə paltarın məhv edilməsi və ya zədələnməsi ilə bağlı hakimiyyət nümayəndəsinə zorakılıq olmadan müqavimət göstərməni başa düşmək olmaz" (15, 714).

Qeyd edək ki, məhkəmə təcrübəsi birinci mövqedə dayanır. Belə ki, M.D.Səlimov və Ə.H.Hüseynov yazırlar ki, hakimiyyət nümayəndəsinin bilavasitə şəxsiyyəti əleyhinə yönəlməyən, lakin ona qarşı müqavimət göstərmə metodu olan bəzi qanunsuz hərəkətlər də (məsələn, hakimiyyət nümayəndəsinin paltarını cırma, polisin paqonlarını sökmə və s.) məhkəmə təcrübəsində fiziki zor kimi qiymətləndirilir (2, 872).

V.V.Doroşkov hakimiyyət nümayəndəsinə qarşı fiziki zorakılıq dedikdə döymədə, müxtəlif ağırlıqlı cismani zədələrdə, ağrıverici fəndlər işlətməkdə, əl-ayağı bağlamada, zorla tutub saxlamada, yerdəyişmə və hərəkət azadlığının məhdudlaşdırılmasında və ya azadlıqdan məhrum edilmədə, əmlakın, sənədlərin və s. qəsdən məhv edilməsində və ya zədələnməsində ifadə edilən hərəkətləri nəzərdə tutur (8, 160).

Hakimiyyət nümayəndəsinə qarşı fiziki zorakılıq dedikdə həmçinin "müqavimət göstərmə" və "mane olma" da başa düşülür. M.D.Səlimov və Ə.H.Hüseynov göstərirlər ki, müqavimət göstərmə dedikdə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar hakimiyyət nümayəndəsinə qarşı fəal qanunazidd hərəkətlərin edilməsi başa düşülməlidir (2, 872). Buradan belə nəticə çıxara bilərik ki, şəxs müqavimət göstərərək, hakimiyyət nümayəndəsinə öz səlahiyyətini həyata keçirməyə imkan vermir. Bu zaman hakimiyyət nümayəndəsi təqsirkara qarşı məcburetmə tədbiri tətbiq edir, sonuncu isə, bir qayda olaraq, itaətsizlik göstərir.

Psixi zorakılıq dedikdə, hakimiyyət nümayəndəsinin bilavasitə özünə və ya onun yaxın qohumlarına fiziki zor tətbiq etmə hədəsi başa düşülür. Bu zaman psixi zor müəyyən xarakterə malik ola bilər. Lakin psixi zor (zor tətbiq etmək hədəsi) hər bir halda real olmalıdır, yəni onun xarakteri təsdiq etməlidir ki, hazırda və gələcəkdə tətbiq olunmasından asılı olmayaraq belə psixi zorakılıq hərəkətləri istənilən anda təqsirkar tərəfindən həyata keçirilə bilər və zərərçəkənin belə hərəkətlərdən ehtiyatlanmağa əsasları vardır. Bu halda təqsirkarın həmin hərəkətləri tətbiq etmək arzusunda olub-olmamasının əhəmiyyəti yoxdur (2, 872).

Beləliklə, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmənin obyektiv cəhəti hakimiyyət nümayəndəsinin bilavasitə özünə və ya onun yaxın qohumlarına həyat və sağlamlıq üçün təhlükəli olmayan fiziki və ya psixi zor tətbiq etmə, həyat və sağlamlıq üçün təhlükəli olan fiziki və ya psixi zor tətbiq etmədə ifadə olunur.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. IV cild. Bakı: «Şərq-Qərb», 2006, 620 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / Prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2007, 860 s.
3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: Digesta, 2009, 700 s.
4. Гаухман Л.Д. Борьба с насильственными посягательствами. М.: Наука, 1969, 168 с.
5. Гаухман Л.Д. Насилие как средство совершения преступления. М.: Наука, 1974, 136 с.
6. Дубовец П.А. Ответственность за телесные повреждения по советскому уголовному праву. М.: Сов. право, 1964, 114 с.
7. Загородников Н.И. Преступления против жизни по советскому уголовному праву. М.: Сов. право, 1961, 256 с.
8. Комментарий к ППВС РФ по уголовным делам. Под общ. ред. В.М.Лебедева и Б.Н.Топорнина. М.: Наука, 1999, 560 с.
9. Комментарий к УК РФ / Под общ. ред. С.И.Никулина. М.: Наука, 2002, 620 с.
10. Погребняк И. Квалификация составных преступлений // Советская юстиция, 1970, № 13, с. 21-25.
11. Поленов Г.Ф. Ответственность за преступления против порядка управления. М.: Наука, 1966, 172 с.
12. Тимейко Г.В. Общее учение об объективной стороне преступления. Ростов-на-Дону, 1977, 146 с.
13. Трофимов Н.И. Ответственность за сопротивление работнику милиции и народному дружиннику // Советская юстиция, 1963, № 1, с. 18-23.
14. Уголовное право. Особенная часть. Учебник для вузов. / Под ред. И.Я.Козаченко, З.А.Незнамовой, Г.Н.Новоселова. М., ИНФРА*М – НОРМА, 1998, 426 с.
15. Уголовное право России. Учебник для вузов. В 2-х т. Т. 1. Общая часть. / Под ред. проф.А.Н.Игнатова и Ю.А.Красикова. М.: НОРМА-ИНФРА-М, 1998, 346 с.


## ОБ ОБЪЕКТИВНОЙ СТОРОНЕ СОПРОТИВЛЕНИЯ ИЛИ ПРИМЕНЕНИЯ НАСИЛИЯ В ОТНОШЕНИИ ПРЕДСТАВИТЕЛЯ ВЛАСТИ

**Ю.Д.ИСМАИЛОВ**

### РЕЗЮМЕ

В статье исследуются объективные стороны сопротивления или применения насилия в отношении представителя власти. Указывается, что объективные стороны сопротивления или применения насилия в отношении представителя власти выражаются в оказании сопротивления или применением насилия, опасного или не представляющего опасность для жизни и здоровья представителя власти или его близких родственников или угрозой применения подобного насилия.

В заключении проводится обобщение по расматриваемому вопросу и делаются соответствующие выводы.

**Ключевые слова:** преступление, уголовная ответственность, объективная сторона преступления, представитель власти, оказать сопротивление, применение насилия.

## THE OBJECT OF RESISTANCE AND VIOLATION AGAINST GOVERNMENT AUTHORITY

**Yu.D.ISMAYILOV**

**SUMMARY**

The article investigates the problem of the object of resistance and violation against government authority. It is shown that the main object of resistance and violation against government authority is directly based on the public relations that warranty the normal management of activity.

In conclusion, the investigated problem is generalized and certain conclusions are completed.

**Key words:** crime, criminal responsibility, objective sides of crime, government authority, resisting, violation.